# Azərbaycanımız var olduqca «Azərbaycan»ımız da yaşayacaq

....Azərbaycan mətbuatından danışarkən 1918-ci ildə təsis edilən "Azərbaycan" qəzetinin adını çəkməmək, xatırlatmamaq mümkün deyil. 143 yaşlı Azərbaycan mətbuatının artıq 100 yaşına çatmış bu qəzeti, bu övladı hər zaman öz şərəfli və ləyaqətli, öyünüləcək, fəxr ediləcək keçmişi, tarixi, ənənəsi ilə seçilib, fərqlənib, imzalar içində imzası olub...

"Azərbaycan" qəzeti düz 100 il öncə - 1918-ci ildə, ilk müstəqil cümhuriyyətimizin, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) dövründə yaradılıb, araya-ərsəyə gətirilib. Bu gün də "Azərbaycan" qəzetinin çoxşaxəli və çoxsahəli fəaliyyəti oxucular tərəfindən böyük məmnunluqla qarşılanır. Bu qəzet ölkənin siyasi-ictimai, sosial-iqtisadi, elmi-mədəni həyatında baş verən hadisələri vaxtında və obyektiv şəkildə Azərbaycan cəmiyyətinə çatdırır. Xüsusilə də, son 25 il ərzində bu qəzet böyük inkişaf yolu keçib, Azərbaycan vətəndaşlarının sevimli qəzetinə çevrilib. "Azərbaycan" qəzeti ölkənin ictimai-siyasi həyatında baş verən hər bir hadisəyə daim düşünülmüş, həssas şəkildə



və peşəkar səviyyədə reaksiya verib. Hər zaman Azərbaycan dövlətinin, Azərbaycan dövlətçiliyinin maraqları mövqeyindən çıxış edib....

"Azərbaycan" qəzetində çox dəyərli, nüfuzlu jurnalistlər komandası çalışır. Təbii ki, qəzetin bu qədər peşəkar səviyyədə özünü tanıtmasında, böyük nüfuz və hörmət qazanmasında xüsusi olaraq baş redaktor - Milli Məclisin deputatı, həmkarımız Bəxtiyar Sadıqovun rolu, əməyi, xidməti müstəsnadır. Məhz onun redaktorluq etdiyi bu illər ərzində "Azərbaycan" qəzeti öz adını, simasını qoruya, tarixi ənənəsinə uyğun şəkildə fəaliyyətini davam etdirə bilib. Odur ki, Bəxtiyar müəllim başda olmaqla, "Azərbaycan" qəzetinin bütün kollektivini, yaradıcı heyətini, bu qəzetin əsasını qoymuş böyük fikir adamlarının hamısını növbəti doğum günləri, 100 illik yubileyləri münasibətilə ürəkdən təbrik edir, dünyasını dəyişənlərə rəhmət diləyir, qalanlara can sağlığı, fəaliyyətlərində, işlərində, yaradıcılıqlarında növbəti nailiyyətlər arzulayıram. Qoy, qələm tutan əlləriniz var, qələminiz daim iti və kəsərli, yubileyiniz, şərəf tariximiz mübarək olsun! Azərbaycanımız var olduqca "Azərbaycan"ımız da yaşayacaqdır!

**akademik**
**Ziyad SƏMƏDZADƏ,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri**

"İqtisadiyyat" qəzetinin redaksiya heyəti və əməkdaşları da təsisçimiz, akademik Ziyad Səmədzadənin bu təbriklərinə qoşulur, "Azərbaycan" qəzetinin kollektivinə daha neçə-neçə yubileylər qeyd etməyi arzulayır. Bu məqaləni tam şəkildə "www.iqtisadiyyat. com" internet səhifəmizdən oxuya bilərsiniz.

TAP-ın Yunanıstan və Albaniya marşrutunda